# Şagird şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin təsiri

**Aydan İsmayılova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aydan_ismailova95@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. P.M. Həsənova,
ped.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** müəllim, şagird, münasibət, sinif, dərs, bilik, bacarıq, vərdiş
**Ключевые слова:** учитель, ученик, отношение, класс, урок, знание, умение, навыки
**Key words:** teacher, pupil, attitude, class, lesson, knowledge, ability, habit

Müəllimin peşəkar fəaliyyətində əsas məsələlərdən biri şagirdin dünyagörüşünün formalaşmasındakı roludur. Belə ki, müəllimin şəxsi nümunəsi tərbiyəedici, maarifləndirici qüvvəyə malik olmaqla yanaşı, şagirdin dünyagörüşündə əvəzsiz rol oynayır. Sosiallaşma şagirdin bilik, bacarıq və vərdişlər qazanmasında mühüm amil olduğundan müəllim buna xüsusi diqqət yetirməlidir. Sosiallaşmanın təməli uşaq yaşlarından qoyulur, məktəb illərində davam etdirilir və yetkinlik yaşlarında daha çox intensiv xarakter alır.

Müəllim-şagird münasibətlərinə dair araşdırmalar göstərir ki, pedaqoji ünsiyyət bir neçə mərhələdən keçir, yəni birdən-birə deyil, müəyyən vaxt və mərhələlər üzrə yerinə yetirilir. V.A.Kan-Kalik və N.D.Nikandrov bunun aşağıdakılardan ibarət olduğunu göstərirlər:

1. Uşaqlarla fəaliyyətə hazırlıq prosesində, auditoriya ilə ünsiyyəti müəllimin modelləşdirməsi. Yəni ki, müəllim dərsə başlamazdan əvvəl ünsiyyəti necə yaradacağını, siniflə ünsiyyətin necə olacağını proqnozlaşdırır.
2. Ünsiyyətin ibtidai mərhələsi: Bu mərhələdə müəllim şagirdlərlə qarşılıqlı təsir zamanında auditoriya ilə ünsiyyəti bilavasitə təşkil edir.
3. Pedaqoji prosesdə inkişafetdirici ünsiyyətin idarə edilməsi bu mərhələdə həyata keçirilir.

4. Son mərhələdə keçirilən ünsiyyət sisteminin təhlili baş verir.

Y.A.Komenski "Böyük didaktika" əsərində yazırdı: "Bizə təbiət əxlaqı verirsə də, biliyi və xeyirxahlığı vermir. Bunu müəllim öyrətməlidir. Müəllim-şagird ünsiyyətinin düzgün təşkili pedaqoji prosesdə mühüm təsirə malikdir. Ünsiyyət işgüzar və səmimi formada təşkil olunmalıdır. Müəllimlə şagird arasında əməkdaşlıq münasibətləri geniş şəkil almalı və möhkəmlənməlidir. Bu ünsiyyətin düzgün formalaşması təlim prosesinin müvəffəqiyyətli olmasına müsbət təsir göstərirsə, düzgün qurulmasa təlim prosesinə mənfi təsir göstərər. Mənfi təsirlərə nələrin aid olduğunu aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Müəllimə qarşı diqqətsizlik;
2. Dərsə tez-tez gecikmə halları;
3. Müəllimdən icazə almadan yerində dillənmək;
4. Ev tapşırıqlarını yerinə yetirməmək;
5. Dərsdə başqa işlə məşğul olmaq və yoldaşı ilə söhbət etmək.

Müəllim-şagird münasibətlərinin düzgün formalaşması üçün müəllimin işinə, sözünə, iş metodikasına qarşı diqqətli olması vacibdir. Onun liberal iş tərzi şagirdlərə qarşı nəzakətsiz və həddindən artıq kobud rəftarı, verdiyi tapşırıqları yoxlamaması və bu kimi digər məsələlər

təlim prosesinə mənfi təsir göstərir. Buna görə də müəllim şagirdlərlə səmimi və işgüzar münasibət yaratmalı və onu təlim vəzifələrinin həllinə yönəltməlidir.

Müəllimin şagirdlərlə düzgün ünsiyyət münasibətləri dərsin keyfiyyətinin yüksəlməsində təsirli vasitələrindən biridir. Müəllimin ünsiyyət mədəniyyətinə malik olması, şagirdlərlə sıx ünsiyyət yarada bilməsi onun dərs prosesində işinin təsirliliyini, səmərəliliyini artırır və şagirdlərlə qarşılıqlı fəaliyyət, əməkdaşlıq üçün sərbəst şərait yaradır. Belə dərslərdə istər müəllim, istərsə də şagirdlər üçün elə bir emosional rahatlıq yaranmış olur ki, burada iştirak etmək hər iki tərəf üçün xoş əhval-ruhiyyə yaradır.

Dərsin yüksək səviyyədə təşkili və keçirilməsi müəllim-şagird ünsiyyətinə daha geniş yollar açır və ünsiyyətin səmərəli olması üçün real şərait yaradır. Bu dərslərdə tələbkarlıq da, hörmət də eyni səviyyədə olmalıdır. Müəllim çalışmalıdır ki, ünsiyyəti, şagirdlərə qarşı tələbləri, işlətdiyi ifadələr və s. hamısı özünə və şagirdlərə olan hörmət və ləyaqətin daha da artmasına və möhkəmlənməsinə səbəb olsun.

Müəllim-şagird ünsiyyətinin başlıca amillərindən biri də müəllimin təcrübəli olmasıdır. Müəllimin peşə fəaliyyətləri daha uzun müddət pedaqoji proseslə məşğul olmaları ilə əlaqədardır. Ali-pedaqoji universitetlərin yuxarı kurs tələbələri ümumtəhsil məktəblərində təcrübə zamanı şagirdlərlə ünsiyyətdə çətinlik çəkirlər. Bu hal gənc müəllimlər arasında da özünü göstərir. Sanki onlar ünsiyyətdə olmaqdan çəkinirlər. Lakin vaxt gəldikcə bu gərginliklər aradan götürülür, təcrübələri artır, müəllim-şagird ünsiyyəti adi hal almağa başlayır. O zaman müəllim-şagird ünsiyyətləri səmərəli nəticələnə bilər ki, müəyyən hazırlıqdan sonra və düşünülmüş şəkildə yaranmış ünsiyyət olsun. Yəni müəllim dərsdən əvvəl öz üzərində işləsin, ünsiyyəti necə quracağı barəsində modelləşdirmə apara bilsin. Beləliklə də, müəllim-şagird ünsiyyəti müəllimin pedaqoji ustalığından asılı olaraq yerinə yetirilməsinə xidmət edir. Onun formalaşması bir sıra amillərlə əlaqələnir. Bu amilləri aşağıdakı kimi göstərmək olar:

1) Dərs prosesinin yüksək səviyyədə təşkili üçün müəllim kifayət qədər nəzəri və praktiki biliyə malik olmalıdır. Müəllim aldığı bilikləri müəllim-şagird ünsiyyətinin həyata keçirilməsində istifadə etməli, daima səmərəli yollar və vasitələr axtarışında olmalıdır. Müəllim nə qədər bilikli olarsa, bir o qədər özünə inamı çox olar. Buna görə də hər bir müəllim aldığı təhsilə daha dərindən yiyələnməlidir.

2) Şəxsiyyətin formalaşması dərs fəaliyyət prosesində baş verir. Müəllimin ünsiyyət, bacarıqları da belədir. Müəllim-şagird ünsiyyətinin formalaşması üçün pedaqoji fəaliyyət xüsusi yer tutur. Müəllimin ünsiyyətinin yaradılması, inkişaf etdirilməsi və aldığı biliklərdən istifadə etməsi bacarıqları bu prosesdə vacib amildir. Buna görə də müəllim həm təlim zamanı, həm də dərsdən kənar olan tədbirlərdə bu bacarıqları nümayiş etdirməlidir.

3) Dərs zamanı müəllimin şagirdlərə qarşı ədalətli olması pedaqoji ünsiyyətin yaranmasında mühüm rol oynayır. Müəllim şagirdi həm mükafatlandıra, həm də cəzalandıra bilər. Amma bu o qədər düzgün, ədalətli, obyektiv olmalıdır ki, şagirdlərlə ünsiyyətə xələl gətirməsin. Bu prosesdə müəllim səhvliyə yol verərsə ünsiyyətin pozulmasına, hətta şagirdlərin arasında narazılığa gətirib çıxara bilər.

4) Müəllim güclü müşahidəçilik qabiliyyətinə malik olmalıdır. Şagirdlərlə qarşılıqlı ünsiyyətə üstünlük verməlidir. Belə ki, qarşı tərəfin, yəni şagirdin fikirlərini öyrənməli, diqqətli dinləməli, bu ünsiyyətin şagird üçün də maraqlı olmasına can atmalıdır.

5) Müəllim-şagird ünsiyyətində müəllimin düşüncələrini emosional, dəqiq şəkildə üzə çıxara bilməsi başlıca faktordur. Müəllim bu bacarıqlardan səmərəli istifadə edərsə, şagirdlərlə ünsiyyətini daha da möhkəmləndirə bilər.

Müəllimin psixoloji xüsusiyyətləri, qabiliyyətləri, davranış tərzi, hətta geyimi belə şagirdlərlə ünsiyyətinə xüsusi təsir edir. Buna görə də müəllim danışıq tərzinə, geyiminə və s. amillərə xüsusi yer verməlidir. Çalışmalıdır ki, səliqəli, təmiz, ciddi, bəzək-düzəyə alüdə olmadan geyinsin. Deməli, daxili amillərlə yanaşı, xarici amillərə də diqqət yetirməli, hər ikisinin düzgün qurulmuş kompleks təsirinə nail olmağa cəhd etməlidir. Çünki müəllim şagird üçün örnəkdir. Şagird daima ondan ibrət alır.

Dərs müəllimin yaradıcılıq prosesidir. Müəllim dərsə həm idrakı, həm psixoloji hazırlaşmalı, tədrisin keyfiyyətinin yüksəlməsinə nail olmağı bacarmalıdır. Müəllim çalışmalıdır ki, şagirdin dərsə marağını cəlb etsin, dərsdə xoş əhval yaratsın, otağa daxil olarkən təbəssümü üzündən əskik eləməsin. Şagirdlərdə şən əhval-ruhiyyə və dərsə həvəslə daxil olmalarına təkan yaratsın. Təcrübələr göstərir ki, dərs bu səviyyədə keçirilərsə, müəllim-şagird münasibətləri daha səmərəli olar. Müəllim həm tələbkar, həm də mehriban olmağı bacarmalı, şagirdlərin dərsə diqqətini cəmləməyi bilməlidir. Müəllimin şagirdlərə olan ünsiyyəti onların fəal olmalarına gətirib çıxarmalıdır. Belə ki, müəllim şagirdləri həvəsləndirməyi bacarmalıdır. Onlar dərsə hazırlıqlı olduqları zaman Afərin, əhsən, fikrində tamamilə haqlısan və s. Sözlərlə şagirdlərin qəlbini ələ almağı bacarmalıdır. Şagird dərs prosesində səmimi və mehriban davranış görərsə, daha çox fəallaşar və bu kimi sözləri eşitmək üçün daha çox səy göstərər. Belə dərs prosesində həm gərginlik aradan qalxar, həm də şagirdlərin daha çox dərs prosesində aktivlik göstərməsinə şərait yaradar.

Sinifdənkənar tərbiyəvi tədbirlər zamanı müəllimlə şagirdlər arasında olan münasibətlər daha dərin və geniş vüsət alır. Bu tədbirdə şagirdlər müəllimlə sıx ünsiyyətdə olurlar və avtoritarlıq öz yerini daha xoş münasibətlə əvəz edir. Müəllim həm tərbiyəvi tədbirin məzmunu və xarakterinə ciddi yanaşmalı, həm də tədbirə hazırlıq prosesində nəzakətli və həssas olmaqla şagirdin də maraq və istəklərini nəzərə almalıdır. Çünki bu tədbirlər şagirdlərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Bəzən müşahidə edirik ki, müəllim şagirdlərə qarşı rəftarında kobudluğa, əxlaq normalarına uyğun olmayan ifadələrə yol verir. Təhqiredici ifadələr işlədir, xırda bir nöqsanı dərhal böyüdür. Bu isə müəllim-şagird münasibətlərində anlaşılmazlığa gətirib çıxardır, uşaq qəlbində incikliyin yaranması ilə nəticələnir.

Kobud tərzdə davranan, şagirdlərin biliyini düzgün qiymətləndirməyən, öz təmkinini pozan müəllimlər xoş olmayan iz qoyur və bu hərəkətlər müəllimi nüfuzdan salır. Ona görə də müəllim öz üzərində işləməli, mənfi xarakterləri aradan qaldırmalı, daima rəğbət qazanmağa cəhd etməlidir.

Şagirdlər o müəllimi daha çox sevirlər ki, səmimi, nəzakətli olmağı bacarır və daima xoşrəftarı ilə yaddaşda qalır. Yaxşı müəllim şagirdin idealına çevrilir və daim ondan nümunə götürür. Müəllimin şagirdlərin beynində yaxşı təəssürat oyatması onun tədris etdiyi fənnə qarşı sevgiyə səbəb ola bilər. Belə ki, müəllim şagirdlərdə rəğbət oyadarsa, fənni nə qədər çətin olsa belə, şagirdlər o dərsə daha çox meyl salacaq, onların daha çox marağına səbəb olacaqdır.

Müəllimin şagirdlərlə ünsiyyətində əxlaqi münasibətlər daha əsas yer tutur. Müəllim qurulmuş münasibətdən düzgün istifadə edərsə, bir çox xoşagəlməz hadisələri aradan qaldıra bilər. Bəzən sinifdə baş verən və ya şagirdlərin hərəkətlərində müşahidə olunan qüsurlar məhz əxlaqi münasibətlərin vasitəsilə tənzimlənir. İlk növbədə müəllim şagirdlərə əxlaqi tərbiyəni aşılamalı, onların böyüklərə, kiçiklərə, öz yaşıdlarına qarşı doğru rəftar etməyə çağırmalıdır.

Müəllimin şəxsi keyfiyyətləri ilə peşə keyfiyyətləri vəhdət təşkil etməlidir. Peşə keyfiyyətlərinə tədris etdiyi fənni, onun tədris metodikasını bilmək, psixoloji hazırlıq,

pedaqoji ustalıq, pedaqoji əmək, pedaqoji takt, natiqlik məharəti və başqa keyfiyyətlər daxildir. Tədris etdiyi fənnə olan maraq müəllimin bu fənn üzrə daha çox inkişafına, şagirdlərə fənnin sirlərini göstərməyə, pedaqoji texnika vasitəsilə onların yeni biliklər əldə etməsinə kömək edir. Yeni metodlardan istifadə zamanı müəllim şagirdlərin idrakı fəallığına, müstəqil düşünmə qabiliyyəti inkişafına nail olur. Təhsil islahatlarının yerinə yetirilməsində müəllim özü dəyişməli, təlimin yeni texnologiyalarını bilməli, yeni proqram və dərsliklərdən fənn kurikulumunun tələblərindən irəli gələn dəyişiklikləri tətbiq etməyi bacarmalıdır. Müəllim və şagird arasında problemlər, adətən sinifdən-sinfə keçdiyi zaman və onların yaş dövrləri ilə əlaqədar baş verir. Məsələn, dördüncü sinifdən beşinci sinfə keçəndə yeni müəllimlərlə tanışlıq zamanı şagirdlərin psixologiyasında müəyyən dəyişikliklər olur. Birdən-birə onlar bir müəllimin təsirindən ayrılıb bir neçə müəllimlə ünsiyyətdə olurlar. Yəni müəllimlərlə tanışlıq onların özünəməxsus xarakterlərinin formalaşmasında mühüm rol oynasa da, ibtidai sinfi yenicə bitirən şagirdlər arasında çaşqınlığa səbəb olur. Bu barədə onlara yeni təyin olunmuş sinif rəhbəri və ya məktəbin psixoloqu kömək etməlidir.

Müəllim-şagird münasibətlərinin düzgün qurulmasında müəllimin üzərinə böyük məsuliyyət düşür. Belə ki, müəllim ən birinci yaxşı psixoloq olmalıdır. Bu cəhəti ilə o şagirdlərin yaxşı dostu olmalı, onları özünə cəlb etməyi bacarmalıdır. Düzgün məsləhətlər verərək onların həyatında yeni cığır açmağı özünə borc bilməlidir. Bunun üçün də o, hər bir şagirdinə individual yanaşmağı bacarmalıdır. Çünki hər bir şagirdin özünəməxsus cəhətləri və xarakterləri vardır. Müəllim bu yolda valideyni dost seçməli və onunla birgə işi təşkil etməlidir. Müəllimin individual yanaşması dedikdə, hər bir şagirdə olan nəzakətli və qayğıkeş olması nəzərdə tutulur. O, şagirdlərlə ünsiyyətində şagirdlərin təhsil uğuruna, tərbiyəlilik səviyyəsinə, yaxşı və pis qiymətlər almasına, sosial vəziyyətinə və s. amillərinə görə fərq qoymamalıdır. Belə fərq olmadıqda bütün şagirdlər müəllimlərini özlərinin nümunəlik simvolu kimi qəbul edir, dostu bilir, ona hörmət bəsləyərək yaxın münasibətdə olurlar. Əgər müəllim bu cəhətlərə əməl etməzsə, ünsiyyətdə tarazlıq pozulur və şagirdlər arasında konfliktlər əmələ gəlir. Bu hal isə həm müəllim-şagird münasibətinin, həm də şagirdlər arasında ünsiyyətin pozulmasına səbəb olur. Müəllim şagirdlərin müxtəlif qruplar şəklində toplanmasının qarşısını almalı, kollektiv şəkildə bir araya gətirməyi bacarmalıdır. Kollektiv münasibətlərin yaranması ən vacib amildir. Ayrıseçkilik, kobudluq, ikiüzlülük, yalançılıq və s. uşaqlara mənfi amil kimi aşılanmalıdır. Kollektivin bütün üzvlərini səmimi, qayğıkeş, ədəbli olmağa çağırmaq lazımdır. Bu münasibətlər düzgün formalaşarsa, sinifdə mehribanlıq, şagirdlər arasında bir-birinə rəğbət, həmçinin ədalətli davranışlar müşahidə olunar.

Məlum olduğu kimi, təlim-tərbiyə işi hər iki tərəfin-öyrədən müəllim və öyrənən şagird arasında baş verən mürəkkəb bir prosesdir. Müəllim həmin prosesdə aparıcı və istiqamətləndirici rola malikdir. Müəllim üzərinə düşən bu vəzifəni uğurla yerinə yetirmək üçün, hər şeydən əvvəl ayrı-ayrı şagirdləri və haqqında danışdığımız sinif kollektivini yaxından duymalı və başa düşməlidir. Əgər müəllim bir şagirdə və ya kollektivə hər hansı cəhətdən təsir göstərmək istəsə, onları özünə cəlb etməyi bacarmalıdır. Şagirdlər özlərini könüllü sürətdə bu təsirə yönəldərsə, müəllim bu işi bacarmış olar. Göründüyü kimi, təsiretmə və təsirolunma müəllim və şagird arasında qarşılıqlı əlaqədən asılıdır. Əgər müəllim və şagird arasında münasibətlər obyektiv, həqiqət üzərində yaradılmışsa, bu halda təsir etmək və təsir olunma səmərəli nəticə vermiş olar. Bəzən müşahidə edirik ki, fənn müəllimini dərs dediyi sinifin bütün şagirdləri sevir, ona diqqətlə yanaşır, dərsə hazırlıqlı gəlmələrinə səy göstərirlər. Bu halın əksinə də rast gəlmək olar. Deməli, təlim-tərbiyə işlərinin müvəffəqiyyətliliyində müəllim-şagird münasibətləri mühüm əhəmiyyət kəsb edir. Müəllimə bu işdə pedaqoji bilik,

bacarıq və qabiliyyətləri, həmçinin şəxsi keyfiyyətləri kömək edir. Müəllimin şəxsi keyfiyyətlərinə nəzər salaq:

— Uşaqlara rəğbət və məhəbbəti,
— Peşəyə olan sevgi,
— Milli və bəşəri əxlaqi dəyərlərə yiyələnmək,
— Xoşxasiyyət və kinsiz olmaq,
Nəzakətli və səmimi olmaq,
Ədalətli, humanist, obyektiv olmaq və s.

Müəllimin şagirdlərə verdiyi bilik, bacarıq və vərdişlər yüksək insani keyfiyyətlərin formalaşdırılmasına xidmət etməlidir. Məktəbdən ilk növbədə yaxşı insan formalaşmalıdır, milli, mənəvi və bəşəri dəyərləri özündə əks etdirməlidir. Cəmiyyətə faydalı yetişməlidir. Məktəb tək bilik vermir, həmçinin şəxsiyyətin düzgün yetişməsinə köməklik edir. Bu şəxsiyyət səriştəli müəllimin rəhbərliyi və istiqaməti ilə bacarıq və vərdişləri daha çox inkişaf etdirir. Bu işdə müəllimin üstünə böyük məsuliyyət düşür. Bütün dövrlərdə şəxsiyyət yetişdirmək, layiqli insan yetişdirmək məktəbin əsas vəzifəsi olmuşdur. Həm savadlı, həm də cəmiyyətə yararlı fərd yetişdirməlidir. Təcrübəli müəllim şagirdlərini müstəqilliyə alışdırmalı, öyrəndiyi bilikdən praktikada istifadə etməyi çalışdırmalıdır. Öyrəndiyi biliyin müstəqil olaraq tətbiqi şagirdlərin daha çox nəticə almasına gətirib çıxarır.

**Məqalənin aktuallığı.** Məqalədə müəllim-şagird münasibəti təhlil olunur, bu münasibətlərin şagird şəxsiyyətinin formalaşmasına təsiri şərh edilir. Göstərilir ki, təcrübəli müəllim pedaqoji qabiliyyətlərindən düzgün istifadə edərək şagirdlərlə münasibəti necə təşkil edə bilər. Burada həmçinin şagirdin bilik, bacarıq və vərdişlərininin formalaşmasında pedaqoqun mühüm rolu qeyd edilir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə şagird şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin təsiri ilə bağlı xarici ölkə alimlərinin apardığı araşdırmalarının nəticələrinə istinad edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. H. Əhmədov. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.
2. M. İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və Təhsil, 2018.
3. M.İ. İlyasov. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.

**А. Исмаилова**

## Влияние учительско-ученические отношении к формировании ученической личности

## Резюме

В статье исследуется учительско-ученические отношении и рассказывается о влиянии этих отношении к формировании ученической личности. А также указывается